# B İ L D İ R İ Ş

Bakı şəhəri, Nizami küçəsi 67, “Azərbaycan Beynəlxalq Bankı”
Açıq Səhmdar Cəmiyyəti

Hörmətli səhmdar!

“Azərbaycan Beynəlxalq Bankı” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra - “ABB” ASC) İdarə Heyəti Sizin nəzərinizə çatdırır ki, 14.06.2022-ci il tarixində keçirilməsi planlaşdırılan səhmdarlarının növbəti ümumi yığıncağı 30.06.2022-ci il tarixində saat 1500-da Bakı şəhəri, Nizami küçəsi 67 ünvanında keçiriləcəkdir.
Bununla yanaşı bildiririk ki, “ABB” Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinin 8.10-cu maddəsinə əsasən səsvermənin qiyabi şəkildə həyata keçirilməsi nəzərdə tutulmuşdur.
Ümumi yığıncağın gündəliyində dəyişiklik edilməmişdir.
Azərbaycan Respublikası Mülki Məcəlləsinin 107-3.2-ci maddəsini və “ABB” ASC-nin Nizamnaməsinin 8.10-ci bəndini nəzərə alaraq qeyd edirik ki, ümumi yığıncağın gündəliyində olan məsələlərə münasibətinizi dəqiq və şərtsiz bildirmək (lehinə, əleyhinə, bitərəf) və imzanız qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və s.) təsdiq edilmək, habelə şəxsiyyət vəsiqənizin surətini təqdim etmək şərti ilə sizə ünvanlanmış bülleten formasını dolduraraq qapalı zərfdə Bakı şəhəri, Nizami küçəsi 67 ünvanına 29.06.2022-ci il tarixədək göndərməklə səsvermədə qiyabi iştirak edə bilərsiniz.
Nəzərinizə çatdırırıq ki, yuxarıda qeyd olunan qaydada təqdim edilmiş zərflərin açılışı ümumi yığıncağın keçirildiyi gün Bankın korporativ katibi tərəfindən həyata keçiriləcəkdir.

“Azərbaycan Beynəlxalq Bankı” ASC-nin
İdarə Heyəti